# Azərbaycan-İran sənədləri imzalanıb



Avqustun 7-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə İranın Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Anlaşma Memorandumu"nu İranın Milli Standartlaşdırma Təşkilatının sədri xanım Nəirə Piruzbəxt və Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev imzaladılar.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə İran İslam Respublikasının Mərkəzi Bankı arasında Anlaşma Memorandumu"nu İranın Mərkəzi Bankının sədri Vəliyullah Seyf və Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı arasında turizm əməkdaşlığı sahəsində İcra Proqramını (2016-2019)" İranın vitse-prezident, Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatının sədri Məsud Sultanifər və Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov imzaladılar.

"Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"nu İranın yol və şəhərsalma naziri Abbas Axundi və Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov imzaladılar.

"Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında elektron təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi və Azərbaycanın rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə imzaladılar.

"Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında bitki mühafizəsi və bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş"i İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif və Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov imzaladılar.

**AZƏRTAC**